# Peşə seçimində valideynlərin rolu

Ötən həftə Qəbələ şəhər 5 saylı tam orta məktəbində Azərbaycan Respublikası Əhalinin Sosial Müdafiəsi Nazirliyi Baş Məşğulluq İdarəsi və rayon təhsil şöbəsinin təşkilatçılığı ilə «Yuxarı sinif şagirdlərinin peşə seçimində valideynlərin rolu» mövzusunda tədbir keçirilmişdir. Peşə yönümü ilə bağlı olan bu tədbirə məktəbin müəllimləri, valideynlər və yuxarı sinif şagirdləri dəvət olunmuşdular.

Tədbirdə ATECA MMC-nin təlimçisi Elnur Tağıyev, Dövlət Məşğulluq Xidmətinin psixoloqu Xatirə Səfərova, xidmətin aparıcı məsləhətçisi Cavid Süleymanov, rayon təhsil şöbəsi müdirinin müavini İxtiyar Hüseynov iştirak etmişlər.





Tədbiri giriş sözü ilə rayon məşğulluq mərkəzinin direktoru Elxan Səlimov açmış, aprelin 1-dən 2-nə keçən gecə və sonrakı günlərdə ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarında Ermənistan—Azərbaycan qoşunlarının təmas xəttində baş verən hadisələrlə bağlı məlumat vermiş, təcavüzkar dövlətin niyyətlərini açıqlamışdır. E. Səlimov çıxışında Azərbaycan Silahlı Qüvvələrinin təcavüzkara layiqli cavab verməsindən, onların geri oturdulmasından, 2 kəndin və bir neçə strateji təpələrin ələ keçirilməsindən danışmış, hücum zamanı həlak olan əsgərlərin və yaxın kəndlərdə erməni gülləsinə tuş gələn sakinlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur.

E. Səlimov çıxış etmək üçün sözü ATECA MMC-nin təlimçisi Elnur Tağıyevə vermişdir. E. Tağıyev çıxışının əvvəlində Azərbaycan Milli Ordusunun işğalçı erməni ordusu üzərində qazandığı Qələbədən danışdı, bu qələbə münasibətilə əsgərlərimizi zabitlərimizi, ordu komandirlərini, bütün əsgər ailələrini təbrik etdi.

Sonra tədbirin keçirilməsində əsas məqsədin gənclərimizin, yuxarı sinif şagirdlərinin peşə seçimi zamanı valideynlərin, ümumtəhsil məktəblərinin qarşısında duran vəzifələrin diqqətə çatdırılması olduğunu qeyd etdi. Natiq söylədi ki, inkişaf etmiş cəmiyyətlərdə bu məsələ ciddi problem kimi öndə durur. Müşahidələr göstərir ki, bir çox hallarda ixtisas və peşə seçimində gənclər və valideynlər səhvə yol verir, gənclərin hansı ixtisasa, hansı peşəyə marağı olduğu nəzərə alınmır. Sonda isə aldıqları təhsil nəticəsiz qalır. Lakin bu sahədə maraq, həvəs, qabiliyyət, istedad xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə E.Tağıyev tədbir iştirakçıları ilə öz arasında interaktiv söhbətə keçdi, həm valideynlərlə, həm də yuxarı sinif şagirdləri ilə canlı dialoq qurdu, suallar cavablandırıldı, qarşıda duran məqsəd və vəzifələrə aydınlıq gətirildi. Sonda «qızıl üçlük» deyilən bir məsələ vacib məsələ kimi ön plana çıxarıldı: 1. İstəyirəm, 2. bacarıram, 3. lazımdırmı? Peşə ixtisas secimi zamanı bu üç düşüncə tərzi öndə durmalı, gələcəyi müəyyən edən nəticə çıxarılmalıdır.

Sonra söz Dövlət Baş Məşğulluq Xidmətinin psixoloqu Xatirə Səfərovaya verildi. X.Səfərova çıxışında əvvəlcə insanların psixoloji durumu ilə bağlı dünya təcrübəsində geniş yayılmış bir sıra aktual nəzəri məsələlərə toxundu və qeyd etdi ki, peşə seçimində doğru və düzgün yolu seçmək gələcəyi qurmaq, planlaşdırmaqdır.

Peşə seçiminin strategiyası var. Bu strategiya sanki bir xəritədir. Əgər bu strategiya, bu xəritə əldə yoxdursa məqsədə nail olmaq mümkün deyildir, bu yol bizi mütləq uğursuzluğa gətirib çıxaracaqdır.

Natiq görkəmli, dünya şöhrətli insanların həyatından misallar gətirməklə düzgün ixtisas və peşə seçiminin rolu və əhəmiyyətini dinləyicilərə çatdırdı.

Sonda rayon təhsil şöbəsi müdirinin müavini İxtiyar Hüseynov, rayon icra hakimiyyətinin məsul işçisi Pərvin Məmmədov çıxış edərək tədbirin qloballaşan dünyaya doğru gedən yolda vacib bir tədbir olduğunu vurğuladılar, bu tədbirin təşkilində əməyi olan hər kəsə minnətdarlıq etdilər.

Tədbiri rayon məşğulluq mərkəzinin direktoru E. Səlimov yekunlaşdırdı.

**Nadir ATAKİŞİYEV,**
**Fotolar**
**İ. Vəlizadənindir.**

# Doğma ölkəmizdə

## Büdcənin gəlir hissəsində qeyri-neft sektorunun çəkisi 78,5 faizə çatıb

Vergilər Nazirliyindən verilən məlumata görə cari ilin birinci rübündə vergi daxilolmaları ilə bağlı proqnoz tapşırığına 101,4 faiz əməl edilib. Hazırda büdcənin gəlir hissəsinin təmin olunmasında qeyri-neft sektorunun payı 78,5 faizə çatıb. Bu, ölkənin postsovet dövrünə qədəm qoymasının göstəricisidir.

Cari ilin sonuna neft sektorundan daxilolmaların 23 faiz təşkil edəcəyi proqnozlaşdırılır.

## Mart ayında BTC kəməri ilə 2,6 milyon tondan artıq Azərbaycan nefti nəql olunub

2016-cı ilin mart ayı ərzində BTC əsas ixrac boru kəməri vasitəsilə 2 milyon 623 min 733 ton Azərbaycan nefti nəql olunmuşdur. Cari ilin yanvar-mart aylarında isə bu kəmərlə 7 milyon 313 min 312 ton neft ötürülüb.

Ümumiyyətlə, kəmər istifadəyə verilən gündən 2016-cı ilin aprel ayının 1-dək BTC-yə 299 milyon 988 min 701 ton neft vurulub.

Bundan başqa 2016-cı ilin mart ayında BTC kəməri ilə 440 min 162 ton Türkmənistan nefti nəql olunub.

# Muzey xəbərləri

## Qəbələnin fəxri vətəndaşları

Rayon tarix-diyarşünaslıq muzeyində "Qəbələnin fəxri vətəndaşları" mövzusunda dəyirmi masa təşkil edilmişdir. Azərbaycanın tarixində böyük xidmətləri olmuş, arxeologiya sahəsində ilk elmi dissertasiyanı müdafiə etmiş Qara Əhmədovun, Azərbaycanın tibb elminə böyük nailiyyətlər bəxş etmiş Dursun Hüseynovun, Qəbələni Azərbaycana, Azərbaycanı dünyaya tanıdan respublikamızın ilk göz həkimi Ümnisə Musabəyovanın, ilk filmin ssenari müəllifi, maarifpərvər yazıçı İbrahim bəy Musabəyovun, hərb tariximizdə ilk general-mayor, ədəbiyyatımızda realist nəsirin banisi İsmayıl bəy Qutqaşınlının həyat və yaradıcılıqları haqqında geniş mövzuda söhbətlər aparılmışdır. Muzeyimizin daimi sərgisində adlarını qeyd etdiyim bütün xadimlərin xüsusi güşələri yaradılmışdır. Tədbir iştirakçılarına geniş mövzulu çıxışlardan sonra guşələrə ekskursiya təşkil olundu. Qəbələnin tarixində iz qoyan bu şəxslərin həyat və yaradıcılıqları bu gün bizlər üçün bir örnək, tariximizin qızıl səhifələrindəndir. Azərbaycanın, o cümlədən Qəbələnin tarixində əvəzedilməz rolu olan tarixi şəxsiyyətlərimiz bu gün fərəh və qürur mənbəyimizdir.

## Azərbaycan Vətənimizdir

Tarixi torpağımız, ana vətənimiz Azərbaycan zaman-zaman ağır sınaqlardan alnıaçıq, üzüağ çıxmışdır. Çünki mərd ərənlərimiz, qəhrəman oğullarımız, şücaətli, hünərli vətən övladlarımız var, bu gün də var olmaqdadır. Azərbaycan torpaqlarında məskunlaşan, çörəyimizi yeyən, suyumuzu içən erməni qəsbkarları 1993-cü il aprelin 2-də tarixi torpaqlarımızdan olan Kəlbəcəri işğal etdi. Azərbaycanın dilbər guşələrindən olan Kəlbəcərin təbii ehtiyatları, tarixi abidələri, bir sözlə bütün maddi-mənəvi sərvətlərimiz talan olundu. Muzeydə "Kəlbəcərsiz ötən günlər" adlı anım mərasimi keçirilmişdir. Tədbirdə Kəlbəcərin qədim tarixi abidələri, muzeyləri, tarixi yaşayış məskənləri haqqında geniş söhbətlər aparılmışdır.

## Şəhidlərimiz unudulmur

Muzeyimizdə şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə geniş guşə fəaliyyət göstərməkdədir. Şəhidlərin bir neçə şəxsi əşyaları, fotoşəkilləri, yazarlarımızın şəhidlərimiz haqqında qələmə aldığı kitabları bu bölmədə sərgilənməkdədir. Doğma Vətənimizin azadlığı uğrunda canından keçən Vətən oğulları şəhidlik zirvəsinə ucaldı, tarixi torpaqlarımızı daha dərindən sevməyi, qorumağı bizlərə əmanət etdi. İndi bütün Azərbaycan övladları olaraq bu gün şəhidlərin ruhu qarşısında fəxarətlə baş əyirik. Şəhidlər Vətənin varlığının, müqəddəs Vətən sevgisinin tərənnümçüsüdürlər. Vətən şəhidlərinin xatirəsi daim unudulmayacaq və heç zaman xatirimizdən silinməyəcəkdir. Vətən uğrunda şəhid adını qazanan bütün övladlara Allahdan rəhmətlər diləyirik.